## «Böyük İqtisadi Ensiklopediya» vergi terminlərinin izahı üçün faydalı olacaq

Milli Məclisin iqtisadi siyasət komitəsinin sədri, akademik Ziyad Səmədzadənin 5 cilddən ibarət «Böyük İqtisadi Ensiklopediya» adlı külliyyatı çapdan çıxmışdır. Nəşrdə Azərbaycanın və dünyanın inkişaf etmiş ölkələrinin maliyyə, gömrük, bank, qiymətli kağızlar, vergi sistemlərində tətbiq edilən əsas termin və anlayışların izahı verilmişdir. Burada Azərbaycan Respublikasının Vergi Məcəlləsində, gömrük qanunvericiliyində, vergilərə aid digər normativ aktlardakı müddəalar, ölkəmizdə ödənilən vergi və yığımlar əhatə olunmuşdur. Kitaba vergi sistemi, vergi qanunvericiliyi, müxtəlif vergilər, vergilərə birbaşa və dolayısı ilə aid olan terminlər, anlayışlar haqqında izahlı məlumatlar daxil edilmişdir.

Akademik Ziyad Səmədzadə qeyd edir ki, hər bir ölkənin vergi sisteminin yaranması, mükəmməl bir şəklə düşməsi uzun və mürəkkəb prosesdir. Azərbaycanda bu proses Sovet İttifaqının dağılmasından və respublikamızın müstəqillik qazanmasından sonra başlanmış, qısa müddət ərzində çox böyük uğurlar qazanılmışdır. Bazar iqtisadiyyatına keçidin ilk dövrlərində respublikamızda «Dövlət vergi xidməti haqqında», «Azərbaycan Respublikasında hüquqi şəxslərin mənfəət və gəlirlərinin ayrı-ayrı növlərindən vergilər haqqında», «Əlavə dəyər vergisi haqqında», «Aksizlər haqqında» və s. qanunlar qəbul edilsə də, bunlar vergi sisteminin inkişafına təkan verə bilmədi. Bəzi normativ-hüquqi sənədlərdə müddəaların bir-biri ilə ziddiyyət təşkil etməsi, vergi sistemini müəyyənləşdirən vergi konsepsiyasının olmaması, dünya təcrübəsinin nəzərə alınmaması bu sahədə inkişafı ləngidirdi. Lakin qısa müddət ərzində bazar münasibətlərinin inkişafı, dünya iqtisadiyyatının sınaqdan çıxarılmış üsullarından istifadə edilməsi nəticəsində çox böyük uğurlar əldə olundu. «2000-ci ildə Vergilər Nazirliyinin yaranması, 2001-ci il yanvarın 1-dən Vergi Məcəlləsinin qüvvəyə minməsi ölkəmizdə normal vergi sisteminin əsasını qoydu. Respublikamızda bazar iqtisadiyyatı münasibətlərinə keçid nəticəsində büdcə siyasətinin formalaşdırılmasında, iqtisadi potensialın artırılmasında, ölkənin müdafiə qüdrətinin gücləndirilməsində, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasında vergilərin rolu getdikcə artır».

Kitabdan vergi və gömrük işçiləri, vergi planlaşdırması üzrə mütəxəssislər, hüquqşünaslar və auditorlar, ali məktəblərin müəllimləri, iqtisadiyyat və hüquq ixtisasları üzrə təhsil alan tələbələr, doktorantlar istifadə edə bilərlər.